AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№52 (1322), 29 - 31 avqust 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## *"Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması ilə əlaqədar*

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Qarabağ" futbol klubunun ilk dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması Azərbaycan futbolunun tarixi qələbəsidir.

Klubun Azərbaycanı layiqincə təmsil etdiyini, ölkədə futbolun inkişafı və yüksəlişində xidmətlərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Qarabağ" futbol klubuna 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 avqust 2017-ci il.*



## Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun heyətini qəbul edib

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın "Qarabağ" futbol klubunun heyətini qəbul edib.

"Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmasını ölkəmizin futbol tarixinin yeni səhifəsi kimi dəyərləndirən Prezident İlham Əliyev deyib: "Bu tarixi qələbə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Siz Azərbaycan xalqına qələbə sevinci bəxş etdiniz. Siz gərgin mübarizədə bir daha göstərdiniz ki, Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür, peşəkardır və ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edir.

Bu tarixi qələbə, eyni zamanda, ona görə önəmlidir ki, bu qələbəni hamımız üçün doğma və əziz olan "Qarabağ" komandası qazanıb. "Qarabağ" komandası Qarabağın adını daşıyır. "Qarabağ" komandası işğal altında olan Ağdam şəhərini təmsil edir. Ona görə sizin qələbənizin çox böyük əhəmiyyəti, mənası var. Bu, sadəcə olaraq, idman qələbəsi deyil, bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir.

Siz də Azərbaycan bayrağını futbol sahəsində yüksəklərə qaldırmısınız. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı və xaricdə yaşayan milyonlarla azərbaycanlı sizin qələbənizə ürəkdən sevinirdi, fəxr edirdi ki, Azərbaycan komandası, xüsusilə "Qarabağ" adını daşıyan komanda bu gün dünyanın, Avropanın ən güclü komandaları arasında yer tutub".

"Qarabağ" klubunun vitse-prezidenti Tahir Gözəl, komandanın baş məşqçisi Qurban Qurbanov və komandanın kapitanı Rəşad Sadıqov onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

## Rövnəq Abdullayev Beynəlxalq Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü seçilib

Avqustun 25-də Macarıstanın paytaxtı Budapeşt şəhərində Beynəlxalq Cüdo Federasiyasının konqresi keçirilib. Konqresdə dünya cüdo təşkilatına üzv olan bütün milli federasiyaların rəhbərləri, tanınmış idman xadimləri iştirak ediblər.



Konqresdə federasiya prezidentliyinə seçkilər keçirilib. Marius Vizer növbəti 4 il müddətinə Beynəlxalq Cüdo Federasiyasının prezidenti seçilib. Daha sonra İcraiyyə Komitəsinin yeni tərkibi müəyyənləşdirilib. Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev Beynəlxalq Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü seçilib.

Məlumat üçün qeyd edək ki, avqustun 28-də Budapeştdə cüdo üzrə dünya çempionatına start verilib. Yarışda 126 ölkədən 731 idmançı mübarizə aparır. Ölkəmiz bu turnirdə 17 cüdoçu (9 kişi, 8 qadın) ilə təmsil olunur.

Dünya çempionatına sentyabrın 3-də yekun vurulacaq.

## Taekvondoçumuz Misirdən medalla qayıdır

Yeniyetmə taekvondoçular arasında Misirin Şarm Əl-Şeyx şəhərində keçirilən dünya birinciliyi başa çatıb. Azərbaycan millisi yarışı 1 medalla başa vurub. Komandamızın heyətində Riyad Şirəliyev fəxri kürsüyə yüksəlib. 37 kq çəki dərəcəsində yarımfinala kimi irəliləyən idmançımız bürünc medalla kifayətlənib.



AZERBAIJAN

1992 25 2017

## 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

Səh. 2-3

## *Hacı Əliyev 3 qat dünya çempionu olmaqla tarix yazdı*

Avqustun 21-26-da Fransanın paytaxtı Parisdə güləş üzrə böyüklər arasında dünya çempionatı keçirilib. Azərbaycan güləş yığması yarışda uğurla çıxış edərək vətənə 1 qızıl və 2 bürünc medalla qayıdıb.

İkiqat dünya çempionu, Rio-2016 Yay Olimpiya Oyunlarının bürünc medalçısı, sərbəst güləş yarışlarında 61 kq çəkidə mübarizə aparan güləşçimiz Hacı Əliyev 3-cü dəfə dünya çempionu tituluna layiq görülüb. Bu, Azərbaycanın sərbəst güləş tarixində bir ilkdir.

Dünya çempionatının bürünc medallarını yığmamıza digər sərbəst güləşçimiz Aslanbek Alborov (97 kq) və yunan-Roma güləşçimiz Elvin Mürsəliyev (80 kq) qazandırıb.

Sərbəst güləşçilərimizdən Cəbrayıl Həsənov (74 kq) və Aleksandr Qostiyev (86 kq), eləcə də, yunan-Roma güləşçilərimizdən ilk dəfə böyüklər arasında dünya çempionatında iştirak edən İslam Abbasov (85 kq) yarışı beşinci sırada başa vurublar.

Sərbəst güləş üzrə yığma komandamızın baş məşqçisi Firdovsi Umudov yarışların gərgin mübarizə şəraitində keçdiyini və güləşçilərimizin axıra qədər inamla güləşdiklərini deyib. Baş məşqçi Hacı Əliyevin 3 qat dünya çempionu olmasını belə qiymətləndirib: "Bu qələbə dövlətimizin, bütövlükdə bütün xalqımızın qələbəsidir. Yüksək nəticələr dövlət başçısının ölkəmizdə idmana və idmançılara göstərdiyi diqqət və qayğı sayəsində əldə edilib".



Üçqat dünya çempionu olmağın sevincini yaşayan Hacı Əliyev isə deyib: "Əsas məqsədim 2020-ci ildə Olimpiya çempionu olmaqdır. Çalışacağam ki, növbəti yarışlarda da uğurlu nəticələr göstərim".

# Olimpizm

## Olimpiya çəkiləri dəyişdirildi

Dünya Güləş Birliyinin (DGB) növbəti iclası keçirilib. İclasda güləşçilərin Tokio-2020 Yay Olimpiya Oyunlarında hansı çəkilərdə yarışacaqları barədə qərar qəbul olunub. Qərara əsasən yunan-Roma və qadın güləşində çəkilərdə dəyişiklik edilib. Rusiya Güləş Federasiyasının prezidenti Mixail Mamiaşvilinin sözlərinə görə, yunan-Roma güləşçiləri Olimpiya Oyunlarında 60, 67, 77, 87, 97 və 130 kq çəki dərəcələrində mübarizə aparacaqlar. "İclasda qadın güləşinin çəkilərində də dəyişiklik aparıldı. Təsdiq olunmuş qərara görə, qadınlar Tokioda 50, 53, 57, 62, 68 və 76 kq çəkidə yarışacaqlar. Sərbəst güləşdə çəki dərəcələri əvvəlki kimi saxlanıldı. Lakin mənə elə gəlir ki, yaxın 6 ay ərzində bu növün də çəkiləri dəyişdiriləcək ", - deyə federasiya prezidenti bildirib.

## "Kalaşnikov" olimpiyaçılar üçün yeni silah hazırlayıb



Rusiyanın "Kalaşnikov" şirkətinin baş direktoru Aleksey Krivoruçk rusiyalı biatlonçular üçün yeni "Bi-7-7" adlı silah istehsal edildiyini deyib. Onun sözlərinə görə, bu silahlar 2018-ci ildə Cənubi Koreyada keçiriləcək Qış Olimpiya Oyunlarından sonra rusiyalı olimpiyaçılara təqdim olunacaq. "Şirkətin hazırladığı yeni silah idmançılarımızın istifadə etdiyi indiki silahlardan geri qalmır. Əksinə, onları üstələyir. Onu da deyim ki, "Bi-7-7" silahı biatlonçularımızın sifarişi əsasında hazırlanıb. Onların təklifləri olduğu kimi qəbul edilib. Əminəm ki, olimpiyaçılarımız bu silahlarla yüksək nəticələr əldə edə biləcəklər", - deyə o bildirib.

## Haker qrupu futbolçularla bağlı məlumat yayıb

"Fans Bears" adlı haker qrupunun futbolçularla bağlı dərc etdiyi materiallar böyük əks-səda doğurub. Materiallarda əksər futbolçunun 2015-2016-cı illərdə dopinq analizinin müsbət nəticələndiyi bildirilib. Deyilənlərə görə, 2015-ci ildə 150, 2016-cı ildə isə 200 futbolçu qadağan olunmuş preparatlardan yararlanıb. "Fans Bears" 2010-cu ildə Cənubi Afrika Respublikasında keçirilən futbol üzrə dünya çempionatında çıxış edən 25 futbolçunun xəstəlikdən əziyyət çəkdiyini də vurğulayıb. FİFA haker qrupunun yaydığı məlumata çox ciddi şəkildə reaksiya verib: "Biz yayılan məlumatı araşdırdıq. Hesab edirik ki, "Fans Bears" məlumatı qeyri-qanuni əldə edib. Belə hərəkət idmançıların şəxsi həyatına toxunulmaz deməkdir. Eyni zamanda dopingə qarşı mübarizədə çətinliklər yarada bilər. FİFA qanun pozuntularını araşdırır və dopinqə qarşı mübarizəni Ümumdünya Antidopinq Agentliyinin qaydalarına uyğun şəkildə aparır".

AZERBAIJAN

# Milli Olimpiya Komitəsi

1992 25 2017

## Heydər Əliyev idman haqqında

**Milli Olimpiya Hərəkatı Azərbaycanda yeni yaranmağa başlamışdır. Keçmişdə Azərbaycanda belə hərəkat, belə təşkilat olmamışdır. Milli Olimpiya Hərəkatının və Milli Olimpiya Komitəsinin yaranması Azərbaycanın dövlət müstəqilliyinin, xalqımızın milli azadlığının bəhrəsidir, onun nəticəsidir.**

* * *

***Azərbaycan Milli Olimpiya Komitəsinin qurub-yaratdıqları bir adam üçün deyil, millət, xalq, ölkədə idmanın inkişafı üçündür.***

* * *

**Olimpiyaçılarımız, siz Azərbaycan xalqının nə qədər böyük işlərə qadir olduğunu dünyada bir daha nümayiş etdirdiniz.**

* * *

***Azərbaycan bayrağı dünyada rəsmən, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də ki, idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən olur. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır.***

* * *

**Bizim məqsədimiz bütün Azərbaycan xalqının sağlamlığını - həm fiziki, həm də mənəvi, əqli sağlamlığını təmin etməkdir.**

* * *

***İdmançılarımız dünyada keçirilən müxtəlif yarışlarda, olimpiadalarda iştirak edərək, Azərbaycanın adını yüksəldirlər.***

* * *

**Müstəqil respublikamız, müstəqil ölkəmiz dünya çempionatında müstəqil dövlət kimi çıxış edir və biz öz idman nailiyyətlərimizi dünyaya nümayiş etdirə bilirik.**

* * *

***Bizim gənclərimiz ona görə sağlam olmalıdırlar ki, ordumuz güclü olsun.***

* * *

**İndi Azərbaycanda idmanın, bədən tərbiyəsinin böyük maddi-texniki bazası yaranır. Biz bu bazanı yaratmaq istəyirik. Biz buna büdcədən vəsait ayırırıq. Ancaq bizim Milli Olimpiya Komitəsinə büdcədən vəsait ayırmaq imkanımız yoxdur. Onlar öz imkanlarından istifadə edirlər. İndi, gör bu işə nə qədər sədaqətlidirlər, bu işi nə qədər sevirlər.**

* * *

***Bizim gələcəyimiz gənclərdir. Biz bu gün müstəqil Azərbaycanın bütün sahələrində mümkün olan nailiyyətləri əldə etmək üçün çalışmalıyıq. Ancaq bu işləri görərkən mütləq Azərbaycanın gələcəyi haqqında düşünməliyik və düşünürük.***

* * *

**İdman, eyni zamanda, həqiqətən, hər xalqın, millətin başqa xalqlar içərisində şöhrətini yüksəldən sahələrdən biridir. İstəyirik ki, bizi hər yerdə tanısınlar, hər yerdə bilsinlər ki, Azərbaycan nəyə qadirdir və nədən ibarətdir.**

* * *

***Mən bir daha əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan gəncləri idmanla daha da yaxından məşğul olacaqlar.***

* * *

**İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır.**

* * *

***Mən Milli Olimpiya Komitəsinə təşəkkür edirəm ki, belə işlər görür və ümidvaram ki, bu iş bundan sonra da davam edəcək, Azərbaycanın başqa bölgələrində də yayılacaqdır.***

# 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT



***Azərbaycan Milli Olimpiya Komitəsinin bu il 25 yaşı tamam olur. Yarandığı gündən etibarən beynəlxalq Olimpiya Hərəkatında özünəməxsus iz qoymağı bacaran Milli Olimpiya Komitəsi mürəkkəb və şərəfli bir yol keçib. Ötən müddət ərzində ölkənin idman və Olimpiya Hərəkatı özünün yüksək inkişaf yoluna qədəm qoyub, idman səlnaməsinə qızıl hərflərlə yazılan nailiyyətlər əldə edilib. İdman və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır və yüksək səviyyəli beynəlxalq yarışlara uğurla ev sahibliyi edir.***

***Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzeti fəaliyyətə başladığı gündən Azərbaycanda idman və Olimpiya Hərəkatının təbliğinə geniş yer ayırır. Qəzet öz səhifələrində idmançılarımızın ölkə və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nailiyyətlər, qazanılan uğurlar barədə oxucuları müfəssəl məlumatlandırır. "Olimpiya dünyası" Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illiyi münasibətilə, bu sayından başlayaraq, silsilə yazıları sizin diqqətinizə çatdıracaq.***

Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) 1992-ci il yanvarın 14-də təsis olunub, həmin ilin noyabrın 2-də Avropa Olimpiya Komitəsinə (AOK), 1993-cü il sentyabrın 23-də isə Beynəlxalq Olimpiya Komitəsinə (BOK) üzv qəbul edilib. Azərbaycanda Olimpiya Hərəkatını şərti olaraq üç dövrə bölmək mümkündür: 1. SSRİ yığma komandası tərkibində Olimpiya Oyunlarında (1952-1992); 2. Beynəlxalq Olimpiya Komitəsinin bayrağı altında Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində Olimpiya Oyunlarında (1992); 3. Azərbaycanın müstəqil dövlət kimi Olimpiya Hərəkatına qoşulması (1992-cil ildən sonrakı dövr). Beləliklə, Azərbaycan Milli Olimpiya Komitəsinin tarixi 1992-ci ildən hesablanır. Ölkəmiz müstəqil dövlət kimi Olimpiya Oyunlarında 1996-cı ildən etibarən iştirak etməyə başlayıb.

Müasir Olimpiya Hərəkatının və Olimpiya Oyunlarının tarixi ilə müqayisədə, 25 il böyük müddət deyil. Amma bu az müddət ərzində Azərbaycan idmançıları Olimpiya Oyunlarında dövlətimizin idman şərəfini qoruyub, onun şan-şöhrətini yüksəklərə qaldırıblar. Milli Olimpiya Komitəsi beynəlxalq aləmdə böyük nüfuz qazanıb, öz fəaliyyəti və əldə etdiyi nəticələrlə daim fərqlənib. Milli Olimpiya Komitəsi beynəlxalq və qitə Olimpiya təşkilatlarında respublikamızı təmsil edir, idmançılarımızın Olimpiya Oyunlarında iştirakın kimi məsuliyyətli bir işin öhdəsindən ləyaqətlə gəlir. İndi idmançıların Olimpiya Oyunlarındakı nəticələri, Olimpiya Hərəkatındakı fəal iştirakı ölkənin təkcə idman sahəsindəki gücü kimi qəbul olunmur. Bu göstərici dövlətimizin dünya birliyində yeri, mədəni və iqtisadi inkişafının yüksək səviyyəsi kimi qiymətləndirilir. Yəni, idman sadəcə, idman yarışlarında əldə edilən qələbə deyildir. İdmanın inkişafı ölkələrin ümumi inkişafının göstəricisidir.

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Lakin həmin dövrdə əksər sahələr kimi, idman sahəsi də başlı-başına buraxılmışdı. Bir çox idman bazaları baxımsızlıq üzündən yararsız vəziyyətə düşmüşdü. Onlardan təyinatı üzrə istifadə edilmirdi, idman avadanlığı və ləvazimatları demək olar ki, dağıdılmışdı. Yüksək idman ustalığına malik perspektivli idmançılar, bacarıqlı mütəxəssislər, məşqçilər ölkəni tərk etməyə başlamışdılar. İdman bütövlükdə dövlət qayğısından kənarda qalmışdı.

1992-ci ildə Azərbaycanda milli federasiyaların və Milli Olimpiya Komitəsinin yaradılması dövlət suverenliyinin atributlarını yaratmaq tələbi kimi meydana çıxdı. 1992-ci il yanvarın 14-də keçirilən ümumrespublika konfransında Milli Olimpiya Komitəsinin yaradılması barədə qərar qəbul edildi. Həmin ilin mart ayında isə komitə Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi. 1992-ci ildə Barselonada keçirilən Olimpiya Oyunları zamanı Azərbaycan Milli Olimpiya Komitəsi hələ Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən tanınmamışdı. Ona görə də ölkəmizin yalnız 4 idmançısı o dövrdə yaradılmış MDB-nin yığma komandasının tərkibində Barselona Olimpiadasında iştirak etdi. 1993-cü ilin sentyabrında Beynəlxalq Olimpiya Komitəsi Monakoda keçirilən Baş Assambleyasında Azərbaycan Milli Olimpiya Komitəsini tanıdı. Təəssüf ki, Milli Olimpiya Komitəsi fəaliyyətə başladığı ilk dövrdə işini lazımi



səviyyədə qura bilmədi və bu vəziyyət ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışına qədər davam etmişdi.

Azərbaycanda idmanın və Olimpiya Hərəkatının inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müdrik siyasətçi dövlət müstəqilliyinin bərpasından bir il sonra Milli Olimpiya Komitəsinin yaradılması münasibətilə demişdir: "Azərbaycanın Milli Olimpiya Komitəsinin yaradılması Azərbaycanın müstəqilliyinin atributlarından biri, ölkənin suverenliyi ilə sıx bağlıdır". Şübhəsiz ki, Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra idmana münasibət köklü şəkildə dəyişdi. Dağıdılmış idman qurğuları əsaslı şəkildə bərpa olundu, yeni idman qurğuları yaradıldı. Ölkədən gedən idman mütəxəssisləri, məşqçilər və idmançılar vətənə qayıtdılar. Azərbaycanın beynəlxalq idman təşkilatları ilə əlaqələri genişləndirildi. 1993-cü ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş Azərbaycan idmançılarını qəbul etdi. Bu görüşdə respublika Prezidenti qeyd etdi ki, idmançılar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdırlar.

Heydər Əliyev eyni zamanda Azərbaycanda Olimpiya Hərəkatının genişlənməsinin də təşəbbüskarı və ilhamçısı olmuşdur. 1994-cü ilin aprelində ölkə başçısı Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rananı, Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqqu qəbul etmişdir. Qəbulda Azərbaycanda Olimpiya Hərəkatının vəziyyəti və onun inkişaf perspektivləri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Bu görüşdən üç ay sonra Prezidentin Fərmanı ilə Azərbaycan Gənclər və İdman Nazirliyi yaradıldı.

Ölkədə idmanla bağlı beynəlxalq əlaqələrə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev 1995-ci il dekabrın 23-də Beynəlxalq Boks Federasiyasının prezidenti Ənvər Çoudrini, 1998-ci ilin avqustunda Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Jeçev başda olmaqla assosiasiyanın nümayəndə heyətini, 2000-ci ildə Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqqu və baş katibi Mario Reskanteni qəbul etdi.

Heydər Əliyevin ölkə idmanına göstərdiyi diqqət və qayğının ən bariz nümunələrindən biri də 1995-ci il martın 5-də Azərbaycan Prezidentinin Fərmanı ilə Azərbaycan Prezidenti yanında İdman Fondunun yaradılması oldu. Olimpiya Hərəkatında, Olimpiya Oyunlarında Azərbaycanın layiqincə təmsil olunması üçün ölkə başçısı Atlanta-1996 Olimpiadasına hazırlıqla bağlı xüsusi Sərəncam verdi, 1995-ci ilin martında idmançıların təltif edilməsi haqqında Fərman imzaladı.

Azərbaycan Respublikasının Prezidenti 1995-ci ilin dekabrında beynəlxalq yarışlarda yüksək nailiyyətlər qazanmış idmançılarla görüşündə demişdir: "Ötən illərdə bizim itkilərimiz çox olmuşdur. Ancaq nailiyyətlərimiz də az deyildir. Bu nailiyyətlər içərisində idman sahəsində, beynəlxalq yarışlarda əldə olunan nailiyyətlər çox qiymətlidir. Onların qiyməti Azərbaycan xalqının təkcə fiziki cəhətdən yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirməkdən ibarət deyildir, həm də müstəqil Azərbaycan Respublikasını dünyada tanıtdırmaqdan ibarətdir". Ümummilli lider beynəlxalq yarışlar sırasında Olimpiya Oyunlarının ən mötəbər, ən yüksək yer tutduğunu həmişə diqqət mərkəzində saxlayır, idmanın inkişafına cavabdeh olan şəxslərdən bu sahəyə məsuliyyətlə yanaşmağı tələb edirdi.

*(ardı 3-cü səhifədə)*

## İlham Əliyev idman haqqında

**Mən 1997-ci idə Milli Olimpiya Komitəsinə prezident vəzifəsinə seçiləndə bir çox arzularımın olduğunu demişdim. Ən önəmlisi o idi ki, idmana cavabdeh olan bütün qurumlar vahid bir komanda şəklində fəaliyyət göstərsinlər. Ancaq o təqdirdə idmanda hər hansı bir müsbət dəyişikliklər, uğurlar əldə etmək mümkün olacaqdı. Mən çox şadam ki, indi Azərbaycan idmanında məhz belə bir əhval-ruhiyyə hökm sürür.**

* * *

***Mən iftixar hissi keçirirəm ki, Azərbaycan Olimpiya Komitəsinə rəhbərlik elirəm və bu müddət ərzində Azərbaycan beynəlxalq Olimpiya ailəsinin fəal üzvünə çevrilmişdir.***

* * *

**Azərbaycan son illər ərzində beynəlxalq idman qurumları ilə çox səmərəli əməkdaşlıq edir. Ölkəmizdə keçirilmiş beynəlxalq yarışlar onu göstərir ki, beynəlxalq federasiyalar və Beynəlxalq Olimpiya Komitəsi tərfindən Azərbaycana böyük hörmət və inam var, bizim fəaliyyətimiz dəstəklənir.**

* * *

***Mən idmana gənc yaşlarımdan bağlıyam. Özüm də idmanla çox fəal məşğul olmuşam və bilirəm ki, idman insanın sağlamlığı, fiziki-mənəvi sağlamlığı üçün böyük bir vasitədir, bu işdə böyük rol oynayır. Eyni zamanda 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Çox şadam ki, bu illər ərzində Azərbaycanda idman sahəsində böyük uğurlar, nailiyyətlər var. İdmançılarımız Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında böyük uğurlar, qızıl medallar qazanırlar.***

* * *

**Azərbaycanda idman ictimai həyatda mühüm amilə çevrilmişdir. Biz buna çalışırdıq. Məqsədimiz bu idi ki, idmançılara hörmət bəsləsinlər, onlarla fəxr etsinlər, gənclər, yeniyetmələr, uşaqlar idmanla məşğul olmağa çalışsınlar. İndi bütün bunlar Azərbaycanda baş verir, insanların şüurunda belə bir fikir möhkəmlənir ki, idmançı layiqli peşədir.**

* * *

***Son vaxtlar Azərbaycanda mütəmadi qaydada beynəlxalq yarışlar, Avropa və dünya çempionatları keçirilir. Hesab edirəm ki, bu turnirlərin keçirilməsi bizim üçün vacibdir və lazımdır.***

* * *

**Yeniyetmələrin, uşaqların vətənpərvərlik ruhunda böyüməsi üçün idman çox mühüm rol oynayır. Bu, Azərbaycanda da belədir.**

* * *

***Gənc nəsil yetişir. Bu, çox müsbət haldır. Bu, onu göstərir ki, idmanda inkişaf var. Əgər gənclər olmasa, gənc nəsil, yeniyetmələr, uşaqlar məşğul olmasa, idmançılar harada inkişaf edər? Bizim kifayət qədər yerli potensialımız var. Bu məsələyə xüsusi diqqət var.***

* * *

**Mən bir neçə dəfə bunu qeyd etmişəm ki, bizdə idmanda birlik var. Hamı - federasiyalar, idman cəmiyyətləri, nazirlik, Milli Olimpiya Komitəsi vahid bir qurum kimi fəaliyyət göstərir. Bəzi ölkələrdə, hətta çoxunda belə deyildir, əksinə, ziddiyyət var, toqquşma var. Amma bizdə bu birlik uğurumuzun əsas səbəblərindən biridir.**

* * *

***Azərbaycanda keçirilən bütün beynəlxalq turnirlərin, yeniyetmələr, böyüklər arasında dünya, Avropa çempionatlarının da böyük əhəmiyyəti olubdur. Yəni bu, Azərbaycanda idmanın səviyyəsini göstərir.***

AZERBAIJAN

# Milli Olimpiya Komitəsi

1992 25 2017

## Heydər Əliyev idman haqqında

**Gənclərimiz idmanla, bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər də güclü olacaqlar, o qədər də qüdrətli olacaqlar. Bizim ordumuzda sağlam əsgərlər olacaqlar.**

* * *

***İdman, birinci növbədə, gənc nəslin fiziki və zehni cəhətdən sağlam böyüməsində, tərbiyə olunmasında, inkişaf etməsində xüsusi yer tutur, xüsusi rol oynayır.***

* * *

**Biz sevinirik ki, Milli Olimpiya Komitəsi idman sahəsində qısa müddət ərzində böyük nailiyyətlər əldə edibdir. İdmanın maddi-texniki bazasının yaradılması və genişləndirilməsində çox işlər görübdür və bu gün də görür, gələcəkdə də görəcəkdir.**

* * *

***İdmanla məşğul olan hər bir gənc potensial çempiondur. Əgər onun fiziki hazırlığı yüksək səviyyədə olarsa, əgər o, əzmlə çalışarsa, öz fiziki keyfiyyətlərini inkişaf etdirə bilərsə və yüksək mənəviyyatla bu işə yanaşarsa, təbiidir ki, çempion olacaq və çempionlar daha da çox olacaqdır.***

* * *

**Biz respublikamızda əhalimizin, millətimizin sağlamlığı haqqında, fiziki, mənəvi sağlamlığı haqqında düşünürük. Bu gün də düşünürük, xalqımızın gələcəyi üçün də düşünməliyik. Bu, bizim vəzifəmizin içərisində ən böyük, ən əhəmiyyətli vəzifədir.**

* * *

**Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün, təbiidir ki, lazımi imkanlar da, lazımi şərait də yaratmalıyıq.**

* * *

***İnanıram ki, bizim yüksək nailiyyətlər əldə edə bilən idmançılarımızın sayı artacaqdır. İnanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaqdır. İnanıram ki, Azərbaycan gəncliyi fiziki, zehni cəhətdən daha da yüksək olacaqdır.***

* * *

**Hər bir şəxsin, hər bir gəncin özünün fiziki sağlamlığı üçün səy qoyması, lazımi rejim yaratması və bədən tərbiyəsi ilə, idmanla məşğul olması onun sağlamlığının təminatıdır və Azərbaycan gəncliyinin fiziki sağlamlığının təminatıdır.**

* * *

***İdmana, bədən tərbiyəsinə qayğı göstərərək, millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk.***

* * *

**Mən bir daha əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan gəncləri idmanla daha da yaxından məşğul olacaqlar.**

* * *

***Hər bir şəxsin, hər bir gəncin özünün fiziki sağlamlığı üçün səy qoyması, lazımi rejim yaratması və bədən tərbiyəsi ilə, idmanla məşğul olması onun sağlamlığının təminatıdır və Azərbaycan gəncliyinin fiziki sağlamlığının təminatıdır.***

* * *

**Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün, təbiidir ki, lazımi imkanlar da, lazımi şərait də yaratmalıyıq.**

# 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

*(əvvəli 2-ci səhifədə)*

Heydər Əliyev Olimpiya Hərəkatının və Olimpiya Oyunlarının bütün dünyada nüfuzunun nə dərəcədə yüksək olduğunu, bu sahədə respublikada əməli işlərin görülməsinin zəruriliyini daim vurğulamışdır: "Olimpiya Oyunları dünyanın bütün ölkələrini maraqlandırır, burada cəmləşdirir. Hər bir ölkə çalışır ki, Olimpiya Oyunlarında təmsil olunsun". Heydər Əliyev hər hansı bir idman nəticəsinin dəyərini obyektiv qiymətləndirməyi təlqin etmiş, idmançının Olimpiya Oyunlarında iştirak etməsi faktının böyük nailiyyət olduğunu qeyd etmişdir. 1996-cı ildə Atlanta Olimpiya Oyunlarına yola düşən nümayəndə heyəti ilə görüşündə ümummilli lider demişdir: "Bu, sadəcə, bir nümayəndə heyəti deyil ki, neçə nəfər istəyirsən, təyin et, müəyyən et, göndər. Dünyada yeganə haldır ki, bu toplantıya, dünya səviyyəli görüşə gedən nümayəndə heyəti nə dövlət, nə də xalq tərəfindən təyin oluna bilər. Olimpiya Oyunlarında iştirak etmək hüququ almaq üçün lazımi göstəricilər əldə etmək gərəkdir. Əgər bunlar olmazsa, Azərbaycan dövləti, Azərbaycan Prezidenti də nə qədər çalışsa, o nailiyyəti əldə etməyən adam yığma komandanın tərkibinə düşə bilməz. Ona görə də 23 nəfərdən ibarət olan bu nümayəndə heyəti Azərbaycan Respublikasının idman sahəsindəki imkanını nümayiş etdirir. Sizin, yəni Azərbaycan Respublikası komandasının XXVI Olimpiya Oyunlarında iştirak etməsi özü əlamətdar bir hadisədir. Siz oradan hansı nailiyyətlə qayıdacaqsınızsa, bu, məsələnin ikinci tərəfidir".

Azərbaycan 1996-cı ildə Atlantada keçirilən Yay Olimpiya Oyunlarında 23 idmançı ilı təmsil olundu. Komandamızın ən yüngül çəkili güləşçisi, ikiqat Avropa çempionu Namiq Abdullayev ona olan ümidləri doğrultdu. Onun qazandığı gümüş medal Azərbaycan pəhləvanlarının Olimpiya Oyunlarında sərbəst güləş üzrə qazandıqları ikinci, müstəqil Azərbaycan bayrağı altında əldə edilmiş birinci medal oldu. Beləliklə, komandamız medal alan 197 ölkə arasında 61-ci yeri tutdu. Ümummilli liderimiz Namiq Abdullayevin gümüş medalını qızıl medal kimi dəyərləndirdi. Heydər Əliyev həmin illərdə gənclərlə görüşlərinin birində demişdir: "Azərbaycan Prezidenti kimi mən şəxsən söz vermişəm ki və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürürəm. Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz". Ümummilli liderin Olimpiya Hərəkatının, idmanın, bədən tərbiyəsinin və gənclərin fiziki inkişafı yolunda atdığı addımlar, həyata keçirdiyi təbliğat xarakterli işlər bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Azərbaycanda idman və Olimpiya Hərəkatının yeni dövrü 1997-ci ildən başlanır. Həmin ilin iyulun 31-də ilin İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Bu il MOK-un 25 illik yubileyi ilə yanaşı İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsinin 20 ili tamam olur. Bu illər ərzində ölkədə idman və Olimpiya Hərəkatı böyük sürətlə inkişaf etməyə başladı. Milli Olimpiya Komitəsinin prezidenti elə ilk gündən bir sıra islahatlar həyata keçirdi. Qısa müddət ərzində milli federasiyalarda dəyişikliklər aparıldı, işə təcrübəli və peşəkar məşqçilər cəlb olundu. MOK-un tabeliyində olan idman bazaları əsaslı təmir olundu. İdmançıların məişət məsələləri ilə bağlı problemlər, bütün kateqoriyadan olan idmançılara təqaüdlərin verilməsi, idmandan kənar düşmüş mütəxəssislərin geri qaytarılması, uşaq və yeniyetmələrin idmana cəlb olunması, yeni idman məktəblərinin açılması kimi məsələlər tez bir zamanda öz həllini tapdı. Cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçiləndən sonra idmançıların sosial vəziyyətinə də diqqət artırıldı. Gələcəyinə böyük inam olan idmançılar və onların məşqçiləri üçün MOK tərəfindən təqaüdlərin verilməsi haqqında Əsasnamə təsdiq olundu. 1998-ci ilin yanvarından etibarən Əsasnaməyə uyğun olaraq idmançılar və onların məşqçiləri təqaüd almağa başladılar.






1999-cu ildə Milli Olimpiya Komitəsi təqaüdlərin yeni növünü müəyyənləşdirdi. Belə ki, Olimpiya Oyunlarına lisenziya qazanmış idmançıların hər biri lisenziya aldıqları tarixdən Olimpiya Oyunlarının keçiriləcəyi tarixə qədər hər ay təqaüdlə təmin olunurlar.

Milli Olimpiya Komitəsinin prezidenti elə ilk gündən beynəlxalq əlaqələrin inkişafına da xüsusi diqqət yetirdi. 1997-ci ilin noyabrında Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Olimpiya Komitəsinin (AOK) Stokholmda keçirilən XXVI Assambleyasında iştirak etdi. 48 ölkə nümayəndəsinin iştirakı ilə keçirilən tədbirdə müzakirə olunan əsas məsələ AOK-un yeni üzvlərinin seçilməsi idi. AOK prezidenti Jak Roqq Azərbaycan nümayəndə heyətini qəbul etdi. Stokholm görüşü Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələrinin təməlini qoymuş oldu. 25 ildə Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin Beynəlxalq Olimpiya Komitəsi (BOK) və AOK rəhbərləri, ayrı-ayrı milli Olimpiya komitələrinin prezidentləri ilə keçirdiyi görüşlər Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq aləmdə nüfuzunu artmasında müstəsna rol oynadı. Qısa bir müddətdə beynəlxalq Olimpiya təşkilatlarının komissiya və işçi qruplarına Azərbaycan təmsilçilərinin daxil edilməsi Milli Olimpiya Komitəsinin nüfuzunun artmasının göstəricisi idi. Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələri yüksək səviyyədədir. Demək olar ki, bütün beynəlxalq federasiyaların rəhbərləri, onların nümayəndə heyətləri Azərbaycanda işgüzar səfərdə olublar. Bu qurumların müxtəlif səviyyəli tədbirləri Bakıda keçirilib. Hələ 2001-ci ildə ölkəmizdə ilk dəfə olaraq Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin toplantısı təşkil olunub. Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının iclası, Avropa ölkələrinin idman nazirlərinin iclası, Avropa Ədalətli Oyunlar Hərəkatının Baş Assambleyası və 15-ci Konqresi Bakıda keçirilib.

Milli Olimpiya Komitəsinin həyata keçirdiyi işləri yüksək səviyyədə qiymətləndirən BOK-un keçmiş prezidenti Jak Roqq çıxışlarının birində demişdir: "Azərbaycanda idman sahəsində və Olimpiya Hərəkatında iş elə təşkil edilmişdir ki, başqa ölkələr bundan nümunə götürməlidirlər". Təbii ki, bu, Azərbaycan Milli Olimpiya Komitəsinin işinə verilən yüksək qiymət idi. Milli Olimpiya Komitəsi 1998-ci ildən başlayaraq idmançıların yarışlarda iştirakını təmin edilməsi, təlim-məşq toplanışlarının keçirilməsi, uşaqların və yeniyetmələrin idmana cəlb olunması, respublikada beynəlxalq yarışların təşkili kimi məsələlərə xüsusi diqqət ayırmağa başladı. Həmçinin Olimpiya Hərəkatının, Olimpiya ideallarının öyrənilməsi və təbliği istiqamətində ardıcıl işlər həyata keçirildi. 1998-ci ildə Yeniyetmələrin Respublika Oyunlarına start verildi. Bu Oyunlarda ölkənin bütün regionlarını əhatə edən 10 minlərlə yeniyetmə idmanın müxtəlif növləri üzrə yarışlarda qüvvələrini sınayırlar. Azərbaycan Milli Olimpiya Komitəsinin yeniyetmə idmançılara göstərdiyi diqqət və qayğı yalnız Respublika Oyunları ilə məhdudlaşmayıb. 1998-ci ildən başlayaraq MOK Olimpiya Hərəkatı ilə bağlı beynəlxalq miqyaslı tədbirlərdə yeniyetmə idmançıların iştirakını təmin edib. Azərbaycanın yeniyetmə idmançıları 1998-ci ildə Moskvada keçirilmiş Yeniyetmələrin Ümumdünya Oyunlarında, Avropa Yeniyetmələrinin Olimpiya festivallarında (Eysborq-1999, Mursiya-2001, Paris-2003, Liqnano-2005, Belqrad-2007, Tampere-2009, Trabzon-2011, Utrext-2013, Tbilisi-2015, Gyor-2017) uğurla yarışıblar. 2010-cu ildə Sinqapurda Yeniyetmələrin I Yay Olimpiya Oyunları keçirildi. Oyunlarda 205 ölkə təmsil olundu. 12 idmançı ilə mübarizə aparan Azərbaycan komandası 5 qızıl, 3 gümüş medal qazanaraq dünya ölkələri arasında 11-ci, Avropa üzrə isə 6-cı yeri tutdu. Azərbaycanın yeniyetmə idmançıları 2014-cü ildə Çinin Nankin şəhərində keçirilən Yeniyetmələrin II Yay Olimpiya Oyunlarında da uğurla çıxış etdilər. Ölkəmizin idmançıları Nankin Olimpiadasında ümumilikdə 12 - 5 qızıl, 6 gümüş və 1 bürünc medal qazandılar. Azərbaycan bu göstərici ilə dünyanın 201 ölkəsi sırasında 10-cu yeri tutdu.

*(ardı var)*

## İlham Əliyev idman haqqında

**Azərbaycanda idmanın inkişafı üçün çox böyük işlər görülmüşdür. İdman hərtərəfli inkişaf edir. Həm kütləvilik artır, həm də idmanla məşğul olmaq üçün bütün imkanlar yaradılmışdır. Gənclərimiz, yeniyetmələrimiz idmana böyük həvəslə yanaşırlar. İdman bölmələrinə axın çox güclüdür. Bu, Azərbaycanda idman sahəsində aparılmış köklü islahatların nəticəsidir.**

* * *

***Azərbaycanın dövlət himni Sinqapurda beş dəfə səslənmişdir, səkkiz dəfə bayrağımız orada ucalmışdır. Bu, böyük iftixar hissi oyadan bir hadisədir. İndi o yekun nəticələr dərc olunandan sonra hər kəs görəcək ki, aparıcı ölkələrin sırasına öz gəncləri, öz idmançıları ilə Azərbaycan da daxildir.***

* * *

**Azərbaycanda idmanın inkişafı çox düşünülmüş və məqsədyönlü şəkildə təmin edilir. Çünki gənc nəslin yetişməsi idman qələbələrinin əsas şərtidir. Əgər gənc nəsil idmançılar yetişmirsə, onda gələcək idman uğurlarından söhbət aparıla bilməz.**

* * *

***Azərbaycanda son illər tikilmiş, istifadəyə verilmiş Olimpiya kompleksləri həm idmanın inkişafı, həm də kütləviliyin artırılması üçün böyük rol oynamışdır. Artıq bütün bölgələrdə gözəl, müasir Olimpiya kompleksləri tikilibdir, bəzi rayonlarda isə növbəti illərdə olimpiya kompleksləri tikiləcəkdir. Çünki Azərbaycanın bölgələrində çox böyük idman istedadları vardır. Sadəcə olaraq onları idman bölmələrinə cəlb etmək və yaxşı şərait yaratmaq lazımdır.***

* * *

**Azərbaycanda bütün idman növləri inkişafdadır. Bizim üçün ənənəvi olan güləş idman növü ilə bərabər, digər idman növləri də inkişafdadır. Bunu həm yeniyetmələrin Olimpiya oyunları göstərmişdir, eyni zamanda, son illər ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında Azərbaycan idmançılarının uğurlu çıxışları da təsdiq edir.**

* * *

***IX Avropa Olimpiya Festivalında, yeniyetmələr arasında keçirilən festivallarda bizim milli komandamız 6-cı yeri tutmuşdur. Bu, çox böyük göstəricidir, çox böyük qələbədir. Nəzərə alsaq ki, bu yarışda 50-yə yaxın ölkənin komandaları iştirak edib, 6-cı yeri tutmaq, sözün əsl mənasında, çox böyük nəticədir.***

* * *

**Azərbaycan dövləti ölkədə idmanın inkişafı üçün bütün lazımi təbdirləri görür və gələcəkdə də görəcəkdir.**

* * *

***Azərbaycanda yeniyetmə idmanı çox yüksək səviyyədədir. Bu, məni çox sevindirir. Azərbaycanda uşaq və yeniyetmə idmanına həmişə böyük diqqət göstərilmişdir. Bu, bizim gələcəyimizdir. İlk növbədə, gənc kadrlar, gənc nəsil yetişir. Digər tərəfdən, bu, onu göstərir ki, gənclərimiz idmana çox böyük maraqla yanaşırlar.***

* * *

**Bizim də məqsədimiz bundan ibarətdir ki, sağlam gənc nəsil yetişsin. Bunu etmək üçün həm idman bölmələri təşkil olunmalıdır, həm federasiyalar, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, müxtəlif qurumlar, bir sözlə, bütün idman ictimaiyyəti bir nöqtəyə vurmalıdır.**



# İdman dırmanması üzrə açıq çempionat başa çatıb

*Avqustun 26-27-də "ClimBaku" Dırmanma Mərkəzində idman dırmanması üzrə yeniyetmə və gənclər arasında "Gömrükçü" İdman Klubunun açıq birinciliyi təşkil olunub. Yarış Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası (FAİREX), eləcə də, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin (DGK İSM) "Gömrükçü" İdman Klubunun təşkilatçılığı ilə keçirilib.*

Birinciliyin açılış mərasimində Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev və FAIREX-in vitse-prezidenti Teymur Nəcəfzadə iştirak edib. Xəzər İsayev ölkəmizdə idman sahəsində görülən işlərdən danışıb. O, müvafiq idman bazalarının qurulduğunu və idmançılara yüksək şəraitin yaradıldığını qeyd edib. Azərbaycanın dünyada tanınmış idman dövlətinə çevrildiyini deyən Xəzər İsayev əldə olunan nəticələrin qürurverici olduğunu bildirib.

FAIREX-in vitse-prezidenti Teymur Nəcəfzadə çempionatda mübarizə aparan idmançılara uğurlar arzulayıb. O, belə turnirlərin ölkəmizdə idmanın bu növünün inkişafında əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra Azərbaycanın dövlət himni səsləndirilib, çempionat açıq elan edilib. Yeniyetmə və gənc idmançılar çətinlik növündə bacarıqlarını nümayiş etdiriblər. Yarışda "Gömrükçü" İK ilə yanaşı, "Qərb Universiteti", "Qafqaz", "Ekosport", FHN İSK, "Kyanite", "Şəki AMA", "Salavat" (Qusar), "Tornodo" və "Gilavar" idman klublarının üzvləri qüvvələrini sınayıblar. Qalib gələn idmançılara diplom, medal, kubok və qiymətli hədiyyələr təqdim olunub.

Məlumat üçün qeyd edək ki, sentyabrın 9-10-da isə böyükyaşlı idmançılar arasında "Gömrükçü" İdman Klubunun açıq birinciliyi keçiriləcək. "ClimBaku" Dırmanma Mərkəzində təşkil olunacaq yarışda idmançılar boldrinq və sürət növlərində bacarıqlarını nümayiş etdirəcəklər.

# Veteran cüdoçunun növbəti qələbəsi

Bugünlərdə Türkiyənin Sakarya şəhərində cüdo üzrə Avropa kuboku yarışı keçirilib. Turnirdə 18 ölkəni təmsil edən yeniyetmə, gənc və veteran cüdoçular mübarizə aparıblar. Sakaryada ölkəmizin təmsilçiləri də medallar uğrunda yarışıblar. Avropa kubokunda 4 veteran cüdoçumuz gücünü sınayıb. Onlardan yalnız biri medalçılar sırasına düşə bilməyib. Digərləri isə fəxri kürsüdə yer alıblar. 81 kq çəki dərəcəsində yarışan veteran cüdoçumuz Çingiz Muradov qızıl medal qazanıb. İlham Quliyev (90 kq) üçüncü olub. Daha bir qızıl medalı komandamıza Azər Bağırov qazandırıb. Avropa kubokunda Azər müəllimin iki yetirməsi yeniyetmələr arasında çıxış edib. Bu barədə qəzetimizə məlumat verən veteran cüdoçu yetirmələrinin çıxışla-




rından razı qaldığını dedi: "Sakaryada keçirilən Avropa kubokunda 18 ölkənin yeniyetmə, gənc və veteran cüdoçuları yarışırdılar. Ölkəmizi təmsil edən 4 veteran idmançıdan 3-ü bu yarışda medal əldə etdi. Bu, yüksək nəticədir. Turnirdə yeniyetmələr də mübarizə aparırdılar. Mənim iki yetirməm medala layiq görüldü. 30 kq çəkidə çıxış edən Cəmil Cəfərov və Samir Əliquliyev (34 kq) bürünc medal qazandılar. Onların çıxışları məni qane etdi. Yeri gəlmişkən deyim ki, Cəmil 52 saylı, Samir isə 158 saylı orta məktəbdə təhsil alır. Həmin məktəblərin rəhbərlərinə minnətdaram. Çünki onlar uşaqların yarışlarda iştirakına həmişə şərait yaradırlar".

Azər Bağırov yetirmələrini qarşıda bir sıra yarışların gözlədiyini bildirdi.

# Avrasiya çempionatında uğurla çıxış

Avqustun 17-dən 19-dək Gürcüstanın Marvili şəhərində muay-tay üzrə Avrasiya çempionatı keçirilib. Yarışda Azərbaycan 12 idmançı ilə təmsil olunub. Komandanın üzvlərindən 9-u yeniyetmələr, 2-si gənclər, 1-i isə böyüklər arasında çıxış edib. İdmançılarımız onlara bəslənilən ümidləri doğruldaraq 9 qızıl, 3 gümüş medal qazanıblar. Böyüklər arasında Cavidan Cəfərli çempion adına layiq görülüb. O, peşəkarlar arasında təşkil olunmuş reytinq döyüşündə də qüvvəsini sınayaraq çempion olub. Bununla idmançımız peşəkar idman karyerasında 12-ci qələbəsini qazanıb. Muay-tay üzrə yığmamızın üzvləri Cavidan Qocayev və Əlfağa Haqverdiyev finalda ermənistanlı rəqiblərini nokauta uğradaraq qələbə əldə ediblər. Həsən Həsənov isə həlledici qarşılaşmada gürcüstanlı rəqibinə tam üstünlüklə qalib gəlib. Qarşıda idmançılarımızı beynəlxalq turnirlər və Belarusda keçiriləcək Avropa çempionatı gözləyir.

# İranın yığması ölkəmizdə təlim-məşq keçib

İranın muay-tay üzrə yığma komandasının üzvləri təlim-məşq prosesi keçmək üçün Azərbaycanda səfərdədirlər. "Qartal" Peşəkar İdman Klubunun dəvəti ilə ölkəmizə gələn qonşu ölkə təmsilçiləri burada Azərbaycan yığması və klub üzvlərinin iştirakı ilə birgə məşqlərdə iştirak edib, sparrinq görüşlər keçiriblər. İran komandasının məşqçiləri Majid Qayeini və Meysam Moradi Azərbaycana səfərlərindən məmnun olduqlarını, ölkəmizdə idmana və idmançılara göstərilən diqqət və qayğının onlarda xoş təəssüratlar oyatdığını bildiriblər. "Komandamızın heyəti 6 nəfərdən ibarətdir. Onlardan 4-ü böyükyaşlı, 2-si gənc idmançıdır. Məşqlərdə iştirak edən idmançılarımızın arasında İran və dünya çempionları, beynəlxalq turnirlərin qaliblərı də var. Azərbaycana səfər bizi çox sevindirdi. Ölkənizin güclü idmançıları var. Onlarla birgə keçirilən məşqlər təcrübə mübadiləsi baxımından bizim üçün böyük əhəmiyyət kəsb edir. Burada muay-tay üzrə turnirdə də iştirak edəcəyik. Çox istərdik ki, gələcəkdə də ölkələrimiz arasında idman sahəsində bu cür təcrübə mübadiləsi davam etsin", - deyə Majid Qayeini bildirib.



# Çempionlar Liqası: "Çelsi", "Atletiko", "Roma" klubları Bakıya gəlir



*Ötən həftə UEFA Çempionlar Liqasının qrup mərhələsinin püşkatma mərasimi keçirilib. Əsas mərhələdə iştirak edəcək 32 komanda 8 qrupa bölünüb.*

Monakoda təşkil olunan tədbirdə ilk dəfə Azərbaycan da təmsil olunub. 5 qat Azərbaycan çempionu "Qarabağ" qitənin ən güclü 32 komandası arasında yer alıb.

Qurban Qurbanovun yetirmələri qrup mərhələsində "Çelsi", "Atletiko" və "Roma" klubları ilə mübarizə aparacaq.

Qeyd edək ki, Monakodakı Çempionlar Liqasının püşkatması həm də Gənclər Liqasına şamil olunur. Rəşad Sadıqovun baş məşqçisi olduğu "Qarabağ"ın U-19 komandası da eyni rəqiblərlə bir qrupda çıxış edəcək.

### UEFA Çempionlar Liqası

**A qrupu:** "Benfika" (Portuqaliya), "Mançester Yunayted" (İngiltərə), "Bazel" (İsveçrə), MOİK (Rusiya);

**B qrupu:** "Bavariya" (Almaniya), PSJ (Fransa), "Anderlext" (Belçika), "Seltik" (Şotlandiya);

**C qrupu:** "Çelsi" (İngiltərə), "Atletiko" (İspaniya), "Roma" (İtaliya), **"Qarabağ" (Azərbaycan)**;

**D qrupu:** "Yuventus" (İtaliya), "Barselona" (İspaniya), "Olimpiakos" (Yunanıstan), "Sportinq" (Portuqaliya);

**E qrupu:** "Spartak" (Rusiya), "Sevilya" (İspaniya), "Liverpul" (İngiltərə), "Maribor" (Sloveniya);

**F qrupu:** "Şaxtyor" (Ukrayna), "Mançester Siti" (İngiltərə), "Napoli" (İtaliya), "Feyenord" (Hollandiya);

**G qrupu:** "Monako" (Fransa), "Porto" (Portuqaliya), "Beşiktaş" (Türkiyə), "Leypsiq" (Almaniya);

**H qrupu:** "Real" (İspaniya), "Borussiya" (Dortmund, Almaniya), "Tottenhem" (İngiltərə), APOEL (Kipr).

# Dieqo Simeone: "Azərbaycan səfəri hamı üçün çətin keçəcək"

""Roma" və "Çelsi" klubları ilə yanaşı, bizim də qrupdan çıxmaq şansımız çox ola bilər. Amma Azərbaycan səfəri hamı üçün çətin keçəcək". Bu sözləri "Atletiko"nun baş məşqçisi Dieqo Simeone deyib.

Argentinalı mütəxəssisin çalışdırdığı komanda UEFA Çempionlar Liqasının qrup mərhələsində "Çelsi", "Roma" və "Qarabağ"la qarşılaşacaq.

Klubun saytına açıqlama verən Dieqo Simeone püşkü dəyərləndirib. Azərbaycan səfərinin çətin keçəcəyini deyən təcrübəli məşqçi qrupdakı digər komandaları da tərifləyib: "Çelsi" ötən mövsümü əla keçirmiş komandadır. Klubun çox yaxşı futbolçuları və baş məşqçisi var. "Çelsi" daim inkişaf edir, həmişə güclü rəqabət yaradır. "Roma" da sözünü demiş komandadır. İtaliyalılar çox yaxşı futbol oynayırlar və fantastik məşqçiyə sahibdirlər. Bu qrupda olduğumuz üçün şadıq".

Qeyd edək ki, "Atletiko"nun "Qarabağ"la ilk oyunu oktyabrın 18-də Bakıda, növbəti görüşü isə həmin ayın 31-də Madriddə təşkil olunacaq.




# "Neftçi idman klubu" İB




## Cüdo

Tayvanın paytaxtı Taypey şəhərində keçirilən XXIX Ümumdünya Yay Universiadasında cüdo yarışları davam edir.

Universiadanın ilk günü milli komandamız üçün uğurlu olub. Belə ki, "Neftçi İdman Klubu"nun cüdoçusu, yarışda ölkəmizi 100 kq çəki dərəcəsində təmsil edən Zelim Kotsoyev bütün qarşılaşmaları qələbə ilə başa vuraraq Universiadanın qalibi adını qazanıb. Qızıl medala aparan yolda idmançımız Almaniya, Latviya, Bosniya-Herseqovina, Rusiya və Yaponiya təmsilçilərini məğlubiyyətə uğradıb.

Qeyd edək ki, 32 ölkədən 300-ə yaxın idmançının mübarizə apardığı Universiadaya avqustun 30-da yekun vurulacaq.

## Taekvondo

Tayvanın paytaxtı Taypeydə keçirilən XXIX Ümumdünya Yay Universiadasında "Neftçi İdman Klubu"nun taekvondoçusu Ayxan Tağızadə gümüş medala layiq görülüb. 68 kq çəki dərəcəsində ölkəmizi təmsil edən idmançımız ilk görüşündə fransalı Franko Matteyə qalib gəlib - 19:7. Təmsilçimiz növbəti görüşdə ingiltərəli Yakub Barnetto 17:9, ispaniyalı Xavyer Peresə 9:7 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Bu mərhələdə o, Ermənistan idmançısı Sergey Vadazaryan üzərində parlaq qələbə qazanıb -31:14. Bu qələbə ilə finala yüksələn idmançımız rusiyalı Boris Krasnova mübarizədə məğlub olaraq Universiadanın gümüş medalına sahib olub.

## Sambo

Rusiyanın Ulyanovsk vilayətində MDB ölkələri milli idman növlərinin və oyunlarının birinci festivalı keçirilib. Azərbaycanın da iştirak etdiyi və 1000-dən çox idmançının yarışdığı mötəbər tədbirin proqramına Olimpiya və qeyri-Olimpiya idman növləri daxil edilib. "Neftçi İdman Klubu"nun samboçusu Cavidan Qarayev (62 kq) festivalda uğurla çıxış edib. Məşqçi Səhliman Ağayevin yetirməsi bütün görüşlərdən qalib ayrılıb və mötəbər yarışın qızıl medalına sahib olub.

## Kikboksinq

Sumqayıtda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş kikboksinq idman növünün K-1 versiyası üzrə peşəkarlararası beynəlxalq turnir keçirilib. "Kikboksinq narkomaniya və uşaq cinayətkarlığına qarşı" şüarı altında təşkil olunan yarışda Azərbaycan, Gürcüstan və Pakistandan olan 20 peşəkar kikboksçu reytinq döyüşlərində mübarizə aparıb.

"Neftçi İdman Klubu"nun yetirməsi, 57 kiloqram çəki dərəcəsində çıxış edən Camal Məmmədov Azərbaycan kəməri uğrunda görüşdə Nurlan Məmmədovu məğlub edərək beynəlxalq turnirin qalibi adını qazanıb.

## Atıcılıq

Beynəlxalq İdman Atıcılıq Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Siyahıda "Neftçi İdman Klubu"nun yetirmələri də yer alıblar. Ötən ayla müqayisədə mövqeyini yaxşılaşdıran Ruslan Lunyov həm 10 metr, həm də 25 metr məsafəyə atəşaçmada bir pillə irəliləyib. O, müvafiq olaraq, 28-ci və 10-cu pillələrə yüksəlib.

Klubun digər atıcısı Nigar Nəsirova isə əvvəlki mövqeyini qoruyub. Xanım idmançımız 10 metr məsafəyə atəşaçmada 58-ci yerdədir.

*"Neftçi İdman Klubu" İctimai Birliyinin mətbuat xidməti*


Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19